# MİR CƏLAL - FƏXR, QÜRUR ZİRVƏSİ

## *(Görkəmli yazıçı Mir Cəlal Paşayevin işıqlı xatirəsinə həsr olunur)*

Mən Mir Cəlalı hələ 5 yaşımda olan vaxtdan tanıyırdım. Şəkillərinə baxanda onun üzü mənə çox ciddi və zəhmli görünürdü. Gözlərindəki hikməti də o yaşlarımdan sezmişdim. Elə həmin vaxtlardan onu çox araşdırmağa başlamışdım. Hətta 9 yaşımda ona "Mir Cəlala" adlı şeir də həsr etmişdim. Həmin şeirim "Hərdən uçmaq istəyirəm" adlı şeir kitabımda 2018-ci ildə, 10 yaşım münasibətilə çap olunmuşdur. "Mir Cəlala" adlı şeirim belədir;

*Müdrik oldu, oldu onda cah-cəlal*
*Ona ad verdilər gözəl Mir Cəlal.*
*Xeyriyyə yardımı edildi ona,*
*Verdilər dərin bilik Mir Cəlala.*
*Car çəkdi, car çəkdi əsərləriylə,*
*"Şeytana, böhtana inanma!" - dedi.*
*Özünü sevdirdi, vətənini də,*
*"Kasıbı-kusubu qoruyun!" - dedi.*
*Birdən o, cibindən qələm çıxardı,*
*Kağızın üstündə nə isə yazdı.*
*Ona çox söz dedi, "Anket Anketov"*
*Mir Cəlal "anket"ə milyon söz yazdı.*
*Dedi: "Yalana və böhtana" nifrət,*
*Yaxşı adamlara min dəfə hörmət,*
*Zavallı, yazığa olsun mərhəmət,*
*Özü öz sözünə o, əməl etdi.*
*Qəlbimdə neçə nəğmə var deyirəm,*
*Mir Cəlal haqqında mən söyləyirəm,*
*Ədibin haqqında bunu bilirəm,*
*O, çox nadir şəxsiyyətdir deyirəm.*

01.01.2017

İndi isə bu məqalə ilə görüşünüzə gəlməyi özümün bu böyük insan qarşısında mənəvi borcum bilirəm. Mənim artıq Mir Cəlal Paşayev ev muzeyi ilə əlaqələrim var. Adına layiq işlər görən muzeylə əlaqəmdən çox şadam. Muzeyin gənclərin maariflənməsində və Mir Cəlalın gənclər tərəfindən daha dərindən tanınması yolunda gördüyü işlər danılmazdır. Bu yaxınlarda Mir Cəlal ev muzeyi "Bir gəncin manifesti" romanından "İtə ataram, yada satmaram" hekayəsi ilə bağlı müsabiqə keçirirdi. Mən də bu müsabiqədə gənc natiqlərlə tanış oldum. Bir neçəsini isə özüm təqdim etdim. Muzey çox uğurlu bir müsabiqə həyata keçirdi və çox sayda həmyaşıdlarım bu müsabiqədə iştirak etdilər. Hədsiz dərəcədə sevindim ki, mənim tövsiyəmlə müsabiqəyə qatılan gənclər müsabiqənin qalibləri oldular. Mən isə həm muzeyə həm də müsabiqənin qaliblərinə müəllifi olduğum "Dünyamsan Azərbaycan", "Hərdən uçmaq istəyirəm" adlı şeirlər və "Ulu Naxçıvanım" adlı publisistik kitablarımı poçt vasitəsi ilə hədiyyə olaraq göndərdim. Buna görə özümü çox xoşbəxt hiss edirəm. Belə ki, cəmi 7 il əvvəl sadəcə şəkilinə baxarkən üzündə zəhm gördüyüm bir şəxsiyyət barədə bu il həm məqalə yazdım, həm də kitablarımı ev-muzeyinə hədiyyə etdim. Bir daha qeyd etmək istəyirəm ki, belə bir şəxsiyyət barədə yazmağı özümün mənəvi borcum bilirəm. Mir Cəlal Paşayev 26 aprel 1908-ci ildə İranın Şəbüstər şəhristanının Əndəbil kəndində anadan olmuşdur. Onların nəsli ağır seyid nəsli olmuşdur. Əndəbil kəndində hava çox gözəl idi. Əndəbil hər fəsildə gözəl olurdu, lakin həmin ilin həmin fəsilində və həmin günündə daha füsunkar və daha cəlbedici görünürdü. Paşayevlər bu günü çox gözləmişdilər. Əndəbilin gözəllərdən gözəl olan bu gününü çox həsrətlə və həvəslə gözləmişdilər onlar. Bu sevinclə bərabər təəssüf doğuran hal o,



*Mir Cəlal, 1928-ci il*

idi ki, Paşayevlər həmin gün Əndəbildən köçməli idilər. Əli kişi, xanımı, oğulları heç ayrılmaq istəmirdilər Əndəbildən. Onlar çox fikirləşirdilər, məlum vəziyyətlə əlaqədar hələlik getməyi dayandırmaq istəyirdilər. Lakin, artıq gün gəlmişdi, istəməsələr də, köçməli idilər. Çünki, onlar həddən artıq ağır olan vəziyyətdə, belə çətin şəraitdə yaşaya bilməzdilər. Belə ki, qacarlar heç də türkləri sevmirdilər. Halbuki, özləri türk idilər, Yozqatdan gəlmişdilər. Ağaməhəmmədin kini nəsildən-nəsilə keçmişdi. Qacarlar yerli türklərin hamısını Vaqif gözündə görürdülər. Halbuki, onların özləri də Vaqif sayılırdı. Yəni, Vaqifin milliyətindən olanlar idilər. Hökümətdə xidmət edən minlərlə türklər and-aman etsələr də, Qacarlar çox qəddar, hətta Firon qədər qəddar idilər. Ona görə də, artıq buralarda qalmağın və yaşamağın bir mənası qalmamışdı. Onlar şimali Azərbaycan barədə çox eşitmişdilər. Şimaldan qayıdan və şimala gedən tacirlər Əli kişi ilə də əlaqə saxlayır, ona bu barədə məlumat verirdilər. -A kişi, ora bir aləmdir ey, aləm. -Düz deyir a kişi, düz deyir. -Orada hamı üçün şərait yaradırlar. -Ruslar farslar qədər qəddar deyillər.-Yəqin ki, üçüncü tacirin diplomatik savadı, səriştəsi yox idi.- Onlar türklərin pul qazanmasına səy göstərirlər. -Nefti bir aləmdir ey, Əli, Hacı Zeynalabdin olarsan. Əli isə Hacı Zeynalabdin olmaq fikrində deyildi: -A kişilər, mən ki, Bakıda doğulmamışam. Mən doğmaca Əndəbilimdə doğulmuşam. Bura mənim üçün doğmadır. Mən buradan ayrılsam, anamdan ayrılaram. Həm də, burada da Hacı Zeynalabdin olanlar var. Özü də şimaldakından çox.

-A kişi, buradakı milyonçular farslardır, farslar! -Şimalda da milyonçular yox e, milyarderlər ruslardır, ruslar! -Özün bilərsən, mən dedim, mən eşitdim, borcumdan çıxdım. Görək sənin qulağına nə vaxt çatacaq. Əli kişi artıq tacirlərin dedikləri ilə razılaşırdı, təbii ki, üçüncü tacirin dediklərindən başqa. Ona görə də, bu gün şimala getməyə qərar vermişdi. Əndəbilin ən gözəl günündə kim Əndəbili tərk edərdi? Əlbəttə, məcbur etməsəydilər heç kim doğma yurdunu tərk edib əzəli vətəninin bir tərəfindən başqa bir tərəfinə istəmədən köç etməzdi. Ancaq, o, tərk edirdi. Bəlkə də, şimalda cənubdan daha da gözəl günlər görəcəkdi. Nə olsun, Əndəbili o, heç hara dəyişməzdi. Dəyişə bilməzdi. Həm də o, buradan getsə, Əndəbilin bərəkəti azalardı. Çünki, o, sınanmış seyid idi. Seyid Əli hamıya kömək edərdi. O, əlini kimin başına qoysa, həmin insan yenidən doğulmuş kimi sağlığına qovuşardı. Seyid Əlinin buradan getməsini onu tanıyanlardan heç kim istəmirdi. Lakin, o, buradan getməliydi. Buranı tərk etməliydi. Seyid Əli içəriyə keçdi və könülsüz halda dedi: -Gedirik, xanım? Evin xanımı gülümsünərək dedi: -Kişi, Mir Xəlili, Mir Vəlini bilmirəm, amma, Mir Cəlalla Mir Cəlilin çox həvəsi var. Uçmağa qanadları yoxdur bircə. Seyid Əli Mir Cəlilə baxan kimi Mir Cəlil özünü yığışdırdı: - Oğlanlarım ata yurdlarını istəmirmişlər, hə? Mir Cəlal dedi: -Xeyr, niyə ki? Atacan, sən niyə elə fikirləşirsən ki, bizim yurdumuz yalnız cənub və Əndəbildir? Mir Cəlil davam etdirdi: -Qardaşım düz deyir. Bizim yurdumuz, əzəli vətənimiz bütöv Azərbaycanımız var! İki qardaş birdən dedi:

-Bəli BÜTÖV AZƏRBAYCAN! Seyid Əli gülümsündü: -Ay maşallah! Mir Cəlil Osmanlımız olub, Mir Cəlal isə Azərbaycanımız. İkisi də əsl qardaşdılar. Atalarına iki kəlməylə böyük dərs keçdilər. Yaxşı, yaxşı, yubanmayın, hazırlaşın, təcili! Seyid Əli Mir Cəlalla Mir Cəlilin sözünə görə çox təsirləndi və içindəki könülsüzlüyü yox etdi, təcili olaraq Əndəbildən Gəncəyə köçdülər. Paşayevlər ailəsinin həyatında yeni fəsil yazılırdı! Gəncəyə köçdükdən sonra 1918-ci ildə Mir Cəlalın atası Seyid Əli vəfat etdi. Ailə çox çətin maddi durumda olduğu üçün Mir Cəlal xeyriyyə cəmiyyətinin məktəbində təhsil almalı olur. Həmin məktəbdə Əhməd Cavad da təhsil alırdı. Mir Cəlal 1928-ci ildə Gəncə Darülmüəllimi bitirib, Gədəbəy yeddiillik məktəbində müəllimlik fəaliyyətinə başlamışdır. O, Gədəbəydə bir çox ziyalıların üzə çıxmasına köməklik etmiş, sonradan həmin ziyalılar Azərbaycan ədəbiyyatının tanınmış simalarından olmuşlar. Oradakı müəllimlərin arasında hamımızın yaxşı tanıdığımız Mirzə İbrahimov da olmuşdur. Mirzə İbrahimov Mir Cəlal kimi Cənubi Azərbaycandan idi. O, Sərab rayonun Evə kəndində anadan olmuşdur. Mir Cəlal 1929-1930-cu illərdə Gəncə şəhər 1 saylı orta məktəbində direktor vəzifəsində işləmişdir. 1930-1932-ci illərdə Kazan Şərq Pedaqoji İnstitutunun ədəbiyyat şöbəsində təhsil almışdır. 1932- ci ildə Bakıya qayıdaraq Azərbaycan Dövlət Elmi Tədqiqat İnstitutunun aspiranturasına daxil olmuş, eyni zamanda "Kommunist" və "Gənc işçi" qəzetlərində işləmişdir. Həmçinin o, ədəbi yaradıcılıqla məşğul olmuş "Sağlam yollarda" adlı ilk kitabı çapdan çıxmış, "Bakı görüşləri" adlı xatirə kitabını yazmış, bu kitabında o, Gəncədəki vəziyyətlərindən də bəhs etmişdir. Gəncədə Mir Cəlalın Səməd Məsrur adlı bir tanışı vardı. Səməd Məsrur gözəl, yeni-yeni şeirlər yazaraq haqqın, ədalətin tərəfində olurdu. Bu xarakterləri onları get-gedə yaxınlaşdırır, onlar dostlaşırlar və bu dostluğun adı Mir Cəlal-Səməd Vurğun (Mənsur) dostluğu olur. Mir Cəlal "Kommunist" qəzetinə işə düzəlir. O həm oxuyur, həm də qəzetdə məqalələr yazırdı. "Kommunist" qəzetinin rəhbərliyi onun əmək haqqını ödəmədiyindən, və İbrahim Eminbəyli işləri sərtləşdirdiyindən o, bir sıra çətinliklərlə üzləşir. Bu səbəbdən Mir Cəlal "Kommunist" qəzetini məhkəməyə verir. Məhkəmənin həmin işə baxan hakimi Rəsizadə soyadlı bir xanım idi. Mir Cəlal həmin məhkəməni Rəsizadənin işə ədalətli, qərəzsiz yanaşması sayəsində qazanır. O, yenidən "Kommunist" qəzetində işləmək istəmir və "Gənc İşçi" qəzetinə işə düzəlir. İşlədiyi vaxtlarda Mir Cəlal Hüseyn Cavidlə görüşür və bu görüşdən sonra onlar arasında dostluq münasibətləri yaranır. Cavid əfəndi Mir Cəlala həmişə "Ağa Mir Cəlal" deyə müraciət edərmiş. Hüseyn Cavid görüşləri zamanı daha çox Füzulinin, Mirzə Cəlilin yaradıcılığını araşdırmağı Mir Cəlala məsləhət görür. Hüseyn Cavidin yönləndirməsi sayəsində Mir Cəlal həm Füzulinin, həm də Mirzə Cəlilin poeziyasının vurğununa çevrilir. İllər sonra yəni 1940-cı ildə Mir Cəlal "Füzulinin poetikası" mövzusunda namizədlik dissertasiyası yazmışdır. 1937-ci il represiya tufanı dönəmində Mir Cəlal Hüseyn Cavidin evində qonaq olmuş və Mir Cəlal öz evinə qayıtdıqdan yarım saat sonra Hüseyn Cavidin, Əhməd Cavadın, Mikayıl Müşfiqin həbs olunma xəbərini eşidərək çox məyus olmuşdur, o, özünə görə yox, ailəsinə görə qorxmuşdur ki, birdən o da həbs olunar və ailəsi "xalq düşməni"nin ailəsi adı ilə sürgün olunar. Mir Cəlal "Sağlam yollarda" adlı ilk oçerk kitabını 1932-ci ildə yazmışdır. Əslində, tam Mir Cəlalın olmayan və "Sağlam yollarda"dan əvvəl çap olunan "İlk addımlar" adlı bir kitab-almanax da olmuşdur. Bu almanax Gəncədə yazıb-yaratmış azərbaycanlı və digər millətlərin yazıçılarının birgə almanaxıdır. Seyfulla Şamilov tərəfindən tərtib olunmuş bu kitabda Mir Cəlalın "Müxbir" və "Anamın vəsiyyəti" şeirlərindən başqa, Cəfər Xəndanın, Səməd Məsrurun (Səməd Vurğun) , Nigar Rəfibəylinin və digər şair və yazıçıların yazıları çap edilmişdir.

Mir Cəlalın həmin şeirlərini məqalədə qeyd etməyi qərara aldım, şeirlər bunlardır: (çox maraqlıdır ki, hekayə yox, şeirlərdir...)

**1-ci şeir; Müxbir**

*Əlində qızıldan bir qələmi var,*
*Masaya söykənib hey... yazar-pozar,*
*Hərdən səssiz olur, dalır, düşünür,*
*Hərdən çöhrəsində bir sevinc doğar.*
*Boş vaxtında gedər idarələrə,*
*Gördüyü nöqsanı yazar dəftərə,*
*Qızıl neştər ilə getdiyi yerə,*
*Tənqid odu vurub, yandırar, yaxar.*
*Bu ellərin var bir qəzetəçisi,*
*Aləmə göstərir yaxşını, pisi,*
*İnqilab yavrusu, sülhün pərisi,*
*Alnında silinməz, şanlı bir vəqar.*
*Ey gözəl ellərin gənc kontrolu,*
*Sən ki, xoşbəxt oldun, tutdun bu yolu,*
*Alqışlar, uğurlar sənə, nə mutlu,*
*Tarixə yaraşan adın var ki, var!*

Mir Cəlal ikinci müstəqil kitabı olan "Boy" oçerkini 1935-ci ildə qələmə almışdır. O, ədəbiyyata oçerk əsərləri ilə başlayıb.

**(Davamı 16-cı səhifədə)**

*(Əvvəli 10-cu səhifədə)*

Mir Cəlal "Dirilən adam" romanını 1936-cı ildə yazmışdır, lakin bu roman o dövrdə heç bəyənilmir və "Kommunist" qəzetində roman barədə sərt tənqidi məqalə yazırlar. O vaxt bir qayda olaraq, "Kommunist" qəzetində tənqid olunan əsərlərin və onun müəlliflərinin "kitabı bağlanırdı", hətta bu hal repressiyaya belə səbəb ola bilərdi. Lakin bu ərəfədə Mir Cəlal yazıçı Mehdi Hüseynlə görüşür. Mehdi Hüseyn həmin tənqidi məqalənin özü barədə tənqidi məqalə yazır və Mir Cəlalı repressiya tufanından xilas edə bilir.

1939-1945-ci illərdə baş vermiş II Dünya müharibəsi bitəndən sonra Mir Cəlal bir qrup yazıçılarla birlikdə Parisə getməyə qərar verir. Fransada onları yaxşı qarşılayırlar. Deyirlər ki, siz bizi ölümün cəngindən qurtaran, xilas edən Sovetlər Birliyinin yazıçılarısınız, biz sizə qayğı göstərməyə borcluyuq. Vətənə qayıtdıqdan sonra filologiya elmləri doktoru, professor Xalid Əlimirzəyev Mir Cəlal haqqında "Müəllimlər müəllimi" adlı xatirə kitabı yazır. Mən həmin kitabı oxudum və

# MİR CƏLAL - FƏXR, QÜRUR ZİRVƏSİ

çox təsirləndim. Xalid müəllim həmin yazısında qeyd edir ki, 1969-cu ildə Ulu Öndərimiz Heydər Əliyev Mərkəzi Komitəyə rəhbərlik edən vaxt Azərbaycan Dövlət Universitetinə (indiki BDU) gəlir və burada görüş keçirilir. Zalda olanların arasında Mir Cəlal Paşayev də olur. Görüşdə çıxış edənlərdən biri Mir Cəlalı sərt tənqid atəşinə tutur, ona böhtanlar atır və bildirir ki, o, sadəcə Cəlil Məmmədquluzadə ilə bağlı dissertasiya yazmağı təklif edir, sanki Azərbaycan ədəbiyyatında sadəcə bir yazıçı var ki, o da Cəlil Məmmədquluzadədir. Həmçinin xüsusilə vurğulayır ki, Mir Cəlal rəhbərlik etdiyi kafedrada qohumbazlıq edir, yaxınlarını orada işə düzəldir. Həmin çıxış edən şəxs Mir Cəlal haqqında həqiqəti əks etdirməyən, tamamilə haqsız, böhtan xarakterli fikirlər irəli sürür. Mir Cəlal çox pis olur. Buna dözməyən Xalid Əlimirzəyev söz alaraq tribunaya qalxır və Mir Cəlalı haqlı olaraq müdafiə edir. Sonra isə digər alimlər haqqın tərəfini tutaraq Mir Cəlala iftira atılmasının qarşısını alırlar. Onu qeyd etmək istəyirəm ki, bir çox çətinliklər, haqsızlıqlarla qarşılaşsalar da sonda tale həmişə yaxşı insanların üzünə gülür. Eynən Mir Cəlal kimi. O, ömrünün sonuna qədər xeyirxahlıq etdi və qarşılığını da tale ona sağlığında bəxş etdi, hazırda da bəxş etməkdədir, çünki xeyirxahlar və xeyirxah əməllər heç bir vaxt unudulmur. Məqaləni Mir Cəlalın idealı olan Cəlil Məmmədquluzadənin məşhur sözü ilə bitirmək istəyirəm: "Elə yaşamalısan ki, öləndən sonra da ölməyəsən - həyatın mənası yalnız budur." Mir Cəlal da əməllərinə görə bizim qəlbimizdə yaşayır, o, ölməyib! Məzarın nurla dolsun, Cəddin köməyimiz olsun, Ağa Mir Cəlal!

*Sevindik NƏSİBOĞLU*
*22.08.2020-ci il,*
*saat 17-08*